UOT:330.35; J; L81.EL: Q14

*Sevda Toviq qızı HACIYEVA*
*i.f.d., dos., Azərbaycan Dövlət Aqrar Universiteti,*
*“Aqrar iqtisadiyyat” kafedrası*
*E-mail: sevda.haciyeva70@mail.ru*
*10.30546/4.71.2023.145*

# AQROBİZNESDƏ LOGİSTİK SİSTEMLƏR VƏ İNNOVASİYA İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAFININ MÜASİR ASPEKTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Aqrobiznes sferasında logistika fəaliyyətinin inkişafını şərtləndirən amillərin tədqiq olunması

**Tədqiqatın metodologiyası-** araşdırılan problemə sistemli və kompleks yanaşma, logistikanın aqrobiznes fəaliyyətində rolunun müxtəlif aspektlərdən müqayisəli təhlili, ümumiləşdirilməsi və qiymətləndirilməsi ilə bağlı metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tədbiqi əhəmiyyəti -** Tədqiqatda şərh olunmuş müddəalar respublikamızda iqtisadi diversifikasiyanın təmin olunmasının aktual olduğu hazırkı mərhələdə xüsusilə işğaldan azad olunmuş bölgələrdə aqrobiznes infrastrukturunun formalaşdırılması prosesində nəzərə alına bilər

**Tədqiqatın nəticələri** – Aqrobiznes sferasında logistika fəaliyyətinin inkişafı bu istiqamətdə innovasiyaların cəlb olunmasına təkan verər və istehsalatda texnoloji yeniliklərin tətbiqinə müsbət təsir göstərər və s.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Aqrobiznesdə logistika fəaliyyətinin inkişafı istiqamətində zəruri olan resurs potensialı və ondan səmərəli istifadənin əsas aspektləri əsaslandırılmışdır.

***Açar sözlər: Aqrobiznes,logistika, sənaye, rəqabət, innovasiya, nəqliyyat, infrastruktur.***

## *Giriş*

Logistika fəaliyyəti bütün sektorlarla əlaqəli olduğu üçün iqtisadi fəaliyyət sahələri içərisində mühüm yer tutur. Qloballaşma prosesi nəticəsində firmalar təklif etdikləri xidmətləri azaltmalı, təkmilləşdirməli və bazarda istehlakçını cəlb edən fərqlər yaratmalıdır. Bu çərçivədə, logistika sənayesi, xərclərin və təqdim edilən xidmətlərin azaldılmasına təsiri ilə yaratdığı dəyər baxımından önəmlidir və iqtisadiyyatda rolu getdikcə artır. Bundan əlavə, logistika iqtisadi artım nöqtəsində əsas amillərdən biri hesab olunur. Azərbaycanda da bu istiqamətdə son illər genişmiqyaslı işlər görülür. O cümlədən yollar çəkilir, su təchizatı formalaşdırılır və regionlarda saxlama kameraları tikilir. Lakin, xüsusi ilə sonuncuların kommersiya fəaliyyəti, yəni, məhsulların saxlanması məqsədi ilə tələb edilən ödənişlər istehsalçıları çətin vəziyyətə salır. Hazırda regionlarda fəaliyyət göstərən saxlama kameraları tikintisində əsas maliyyələşdirici dövlətin müvafiq qurumlarıdır. İqtisadiyyat Nazirliyi bu məqsədlə güzəştli kreditlər verir. Təbii ki, sonrakı mərhələdə kreditin geri qaytarılması kameraların yüksək qiymətlərlə icarəyə verilməsinə səbəb olur. Digər tərəfdən isə bu kimi müəssisələrin azlığı faktiki olaraq rəqabət mühitinin olmamasını şərtləndirir ki, nəticədə bir çox hallarda qiymətlər faktiki xərcləri dəfələrlə üstələyir. Daha yaxşı olar ki, hələlik bu tipli kameralar dövlət hesabına tikilsin və ödənişsiz xidmətlər təklif etsin ki, xüsusi ilə də kiçik və ailə təsərrüfatları imkanlarından istifadə edə bilsin. Saxlama imkanı təmin edilməsi ilk növbədə istehsalı stimullaşdırmaqla yanaşı həmçinin ölkənin ərzaq təhlükəsizliyi dövriliyini təmin etmiş olar. Eyni zamanda isə istehsalçı məhsul yığımı zamanı yaranan bolluq nəticəsində sərfəsiz satış əməliyyatı həyata keçirməz ki, bu da öz növbəsində sektorda gəlirliliyi daha da artırar.

**Respublikamızda innovasiyayönümlü istehsal infrastrukturunun formalaşdırılmasının prioritetləri**

Müasir dövrdə dünya iqtisadiyyatında müşahidə olunan iqtisadi inkişaf tendensiyalarının əsas ünsürlərini təhlil edərkən məlum olur ki, bu cür nailiyyətlərin əsas meyarı innovasiyalar və onların

tətbiqini dəstəkləyən biznes mühitidir. Bu aspektdə milli innovasiyalar mərkəzinin funksionallığının artırılması, xarici bazarlarda rəqabət apara biləcək iqtisadi fəaliyyətin inkişafına yardım göstərilməsi təxirəsalınmaz siyasi vəzifədir. İnnovasiyaların dəstəklənməsi iqtisadi subyektlərin rəqabət qabiliyyətini artırmaqla lokal və beynəlxalq bazarlara çıxış imkanlarını da sürətləndirir. Məhz bu baxımdan son illər respublikamızda innovasiya sahibkarlığının inkişafı üçün təşviqedici iqtisadi mühit formalaşdırılmışdır.

Hazırda respublikamızda neft sektorunun alternativlərinin artırılması istiqamətində innovasiyaların köməyi ilə yeni bir iqtisadi strategiya həyata keçirilir. Çoxsaylı innovasiya təşəbbüslərinin təşviqi, vergi güzəştləri və subsidiyalar da daxil olmaqla yeni iqtisadi alətlərdən istifadə olunması deyilənləri əsaslandırır. Göstərilən müddəaların icrası iqtisadiyyatın bütün sahələri üzrə, o cümlədən, aqrobiznes sektorunda mövcud potensialdan daha səmərəli istifadənin yüksəlişinə xidmət edir.

**Aqrobiznes sektorunda logistika xidmətinin inkişafını şərtləndirən amillər**

Aqrar sahə məhsullarının tədarükü, emalı və satışı ilə məşğul olan sahələr arasındakı qarşılıqlı əlaqə və asılılıqlar iqtisadi mexanizmin təkmilləşdirilməsi, qiymət, iqtisadi stimul və maddi maraqla bağlıdır. Ona görə də həmin iqtisadi amil və şərtlər elə təşkil edilməlidir ki, onlar istehsal olunan məhsulların vaxtında və keyfiyyətlə tədarükünə, onların emalının və satışının səmərəli təşkilinə hər bir müəssisə və kollektivdə maraq yaratsın. Məhsulların satışına və istehsal resurslarının alınmasına dair qiymətlər elə müəyyən edilməlidir ki, onun səviyyəsi maraqlanan tərəflərin mənafeyini təmin etsin. Bu zaman müqavilə qiymətlərindən istifadə edilməlidir. Həmin qiymətlərin səviyyəsi isə düzgün əsaslandırılmalıdır [1, s. 41].

Araşdırmalar göstərir ki, istehsalçılar istehsal etdikləri üzümü, meyvəni, pambığı, tütünü, südü, tərəvəzi, çay yarpağını və s. məhsulların böyük bir hissəsini emal müəssisələrinə satırlar. Bununla onlar öz fəaliyyətini başa çatdırırlar. Bir çox hallarda bu və ya digər məhsulların qiymətləri çox aşağı səviyyədə müəyyən edildiyindən, əksər hallarda isə kənd təsərrüfatı məhsulları istehsal edənlər qiymətlərin formalaşması prinsipini bilmədiklərindən, habelə, inflyasiyanın güclənməsi ilə əlaqədar məhsul satışından daxil olan pul gəliri onun maya dəyərini ödəmir. Beləliklə, istehsalçı fəaliyyətini zərərlə başa vurur.

Hazırda istehsal, tədarük, emal və satış təşkilatları arasında iqtisadi əlaqələri həyata keçirən qiymətqoyma mexanizmi müasir dövrün tələbləri səviyyəsində təşkil edilməmişdir. Əksər hallarda müqavilə qiymətləri təxminən müəyyənləşdirilir, qiymətlərin səviyyəsi elmi əsaslandırılmış hesablamalarla dəqiqləşdirilmir. Bir qayda olaraq qiymətlər tez-tez dəyişdirilir. Nəticədə, emal müəssisəsi istehsalçıdan və ya tədarük təşkilatından aldığı məhsulun dəyərini vaxtında ödəyə bilmədiyindən istehsalçının və həm də tədarük təşkilatının iş fəaliyyəti pozulur. Eyni zamanda istehsal edilən son məhsulun aşağı keyfiyyətdə istehsalına görə satış təşkilatı da lazımi səviyyədə gəlir əldə edə bilmir və öz iqtisadi əlaqələrini səmərəli təşkil etmək imkanını itirir. Çünki kənd təsərrüfatı məhsullarını tədarük edən təşkilatlarla emal müəssisələri və satış orqanları bir-birilə sıx əlaqədardır. Belə ki, emal müəssisəsində texniki nasazlıq üzündən məhsulun vaxtında emalı həyata keçirilməsə, məhsul itkisinə yol verilir. İnteqrasiya prosesinin güclənməsi məhsul istehsalının artmasına, əmək ehtiyatlarından, əsas vəsaitlərdən, torpaqdan səmərəli istifadə olunmasına, daha çox pul gəliri və mənfəət əldə edilməsinə, sosial problemlərin həllinə şərait yaradır.

Araşdırmalar göstərir ki, hələlik məhsulların istehsalı, tədarükü, emalı və satışı ilə məşğul olan müəssisə və təşkilatlar arasındakı iqtisadi əlaqələr səmərəli təşkil olunmadığına görə onların mənafeləri tam təmin edilmir. Ona görə də məhsul istehsalının artımına və iqtisadi səmərəliliyin yüksəldilməsinə tam əməl olunmur.

Hazırda qeyd olunan problemlər kənd təsərrüfatı xammalı istehsalının həcmi ilə emal gücləri arasında tarazlığın pozulmasına səbəb olmuşdur ki, bu da nəticədə külli miqdarda məhsul itkilərinin yaranmasına şərait yaradır. Hesablamalar göstərir ki, bu çatışmazlıqla bağlı olaraq ildə meyvə-tərəvəz, süd məhsulları istehsalı sahəsində ümumi istehsalın 25-30%-nin itkisi, məhsulun keyfiyyətinin 10-15% aşağı düşməsi müşahidə olunmuş, hər iki sahədə təsərrüfat subyektləri ziyanla qarşılaşmalı olmuşdur.

Digər mühüm çatışmazlıqlardan biri dünya standartları səviyyəsində məhsul istehsalına nail olunmamasıdır. Dünya standartları səviyyəsində məhsul istehsalına nail olunması üçün ilk növbədə istehsal texnologiyalarının yenidən qurulması tələb olunur. Belə ki, xammal istehsalı üçün tələb olunan aqrotexniki, zootexniki, zoobaytar işləri, seleksiya, toxum yetişdirmə, bitkiçilik məhsulları istehsalı üçün torpaq sahələrinin seçilməsi, iqlim şəraitinin düzgün və dəqiq olaraq seçilməsi, kadrların, mütəxəssislərin elmi-texniki tərəqqinin nailiyyətlərinin tələbləri əsasında hazırlanması, bu sahədə tələb olunan texniki vasitələrin yeniləri ilə əvəz olunması problemlərinin həlli tələb olunur.

Dünya təcrübəsi göstərir ki, aqrobiznesin səmərəli inkişaf mexanizminin təmin edilməsi üçün ilk növbədə mütərəqqi və balanslaşdırılmış formada bazar strukturlarının yaradılması tələb olunur.

Aqrobiznes sahəsinin formalaşdırılması üçün ən əsas problemlərdən biri olan müstəqil struktur siyasətinin aparılmasıdır. Qeyd etmək lazımdır ki, hazırda aqrobiznesin funksional, sahəvi, istehsal və idarəetmə sahəsində müəyyən çatışmazlıqlar mövcuddur. Digər tərəfdən isə istehlak resursları potensialları ilə istehsalın ixtisaslaşması, yerləşdirilməsi, tələbatla istehsal və emal istiqamətləri arasında, xarici iqtisadi əlaqələrin formalaşdırılması istiqamətində çatışmazlıqlar da qeyd olunmalıdır. Hazırda həmçinin aqrar-emal sənayesində ekoloji cəhətdən təmiz məhsullar istehsalına nail olunması üçün emal texnologiyalarının tətbiqi sahəsində də hələlik geriliklər mövcuddur.

Qeyd edilən problemlərin həlli ilk növbədə aşağıdakı məsələlərə tam əməl olunmasını tələb edir:

- kənd təsərrüfatı sferasında istehsal olunan hər bir məhsulun istifadə istiqamətləri üzrə (daxili istehlaka, emala, birbaşa istehlaka) miqdarı konkret olaraq müəyyən edilməlidir;
- istehsalla tədarük, emal, satış və bunlara bilavasitə xidmət göstərən infrastrukturlar arasında yaradılan kooperasiya və iqtisadi inteqrasiya münasibətlərinin formalaşdırılaraq inkişaf etdirilməsi istiqamətləri əsas götürülməlidir;
- istehsal, xidmət, əmtəə məhsullarının birgə ticarət fəaliyyətlərini həyata keçirə bilən yeni kooperasiya, inteqrasiya, marketinq və aqroservis xidmətləri əlaqələrinin formalaşdırılması;
- beynəlxalq ticarət əlaqələrinin inkişafına imkan yaradan milli və ümumi gəlirlərin sərhədlərinin bərabərləşdirilməsi və s.

Aqrobiznesdə kiçik və orta sahibkarlıq subyektlərinin səmərəli fəaliyyət göstərməsi imkanları iri müəssisələrlə müqayisədə bir sıra üstünlüklərə malikdir. Bunlara aşağıdakıları aid etmək olar:

- yerli bazarlara çıxış imkanları;
- istehlakçıların tələbatlarını operativ olaraq qiymətləndirmək qabiliyyəti;
- ilkin kapitalın az olmasıyla ambisiyalı işgüzarları daha çox təşviq edən bir strukturun mövcudluğu;
- sadə idarəetmə mexanizminin olması ilə əlaqədar qərarların daha sürətli praktikada tətbiq imkanları;
- şəxsi (sahibkar) kapitalın daha geniş dövriyyəsi və s.

Kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsi iqtisadiyyatın sağlamlaşdırılması üçün əlverişli şərait yaradır. Yəni rəqabət mühitini formalaşdırır, istehlak sektorunu seqmentləşdirir, ixrac imkanları genişləndirilir, yerli xammal resurslarından səmərəli istifadəni təşviq edir, əmək tutumlu sahələrin inkişafını təmin edir. Bəzi tədqiqatçıların fikrincə, bazar iqtisadiyyatı sisteminə keçən ölkələrdə KOS-un inkişafı ümumi daxili məhsulun istehsalının davamlı artırılması, büdcənin vergi gəlirlərinin formalaşdırılması və işsizlik səviyyəsinin aşağı salınmasında mühüm rol oynamaqla yeni iqtisadiyyata inteqrasiya prosesini sürətləndirir, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və pul gəlirlərinin artırılmasına müsbət təsir göstərir. Son illərdə makroiqtisadi göstəricilərin yüksəlişdə olduğu respublikamızda kiçik və orta sahibkarlıq subyektlərinin əhəmiyyəti xüsusilə məşğulluq səviyyəsinə verdiyi töhfələr baxımından bir qədər də artmışdır. Sosial-iqtisadi əhəmiyyəti ilə yanaşı Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında, həm daxili bazarlarda, həm də dünya miqyasında rəqabət apara biləcək müəssisələrin formalaşdırılmasını qloballaşma prosesinin çağırışları kimi də qiymətləndirmək olar. Kiçik və orta sahibkarlığın iqtisadiyyatda önəmli rolu əsasən onun xüsusiyyətləri ilə əlaqəlidir. Bu qurumlar minimum investisiya xərcləri ilə daha çox istehsal və məhsul çeşidliliyinə nail olurlar, iqtisadi konyunkturdakı ani

dəyişkənliyə daha tez uyğunlaşır, tələbatdakı dəyişikliklərə və müxtəlifliklərə daha rahat uyğunlaşa bilir, texnoloji yeniliklərə daha çox meyilli olur və regionlararası iqtisadi tarazlığı təmin edirlər.

**Hazırkı iqtisadi şəraitdə aqroparkların formalaşması və inkişafının əsas aspektləri**

Aqroparklar kənd təsərrüfatı məhsullarının intensiv istehsal olunmasında, daşınmasında, saxlanılmasında və eyni zamanda onun satışının təşkil edilməsində mühüm rol oynayır. Kənd təsərrüfatı məhsulları tezxarabolan məhsul olduqlarına görə realizasiya prosesi sürətli olmalıdır. Lakin əksər hallarda məhsulların fermerlər tərəfindən vaxtında satışı mümkün olmur və bunun nəticəsində məhsulun istehlak müddəti bitir [6.səh 74]. Təbii ki, bu proses istehsalçının zərərinə səbəb olur. Digər tərəfdən isə istehsalçı və istehlakçılar arasında fəaliyyət göstərən vasitəçilər yaranmış situasiyanı öz mənavelərinə uyğun dəyərləndirir. Yəni, məhsulları daha ucuz qiymətlərlə tədarük edir. Bu zaman isə fermerlərin mənfəəti azalır, təkrar istehsal təşəbbüskarlığı aşağı düşür və orta və uzunmüddətli dövr üçün ölkədə ərzaq qıtlığına səbəb olur. Beləliklə daxili istehlak idxaldan asılı vəziyyətə düşür, geni dəyişdirilmiş (GMO) məhsullar ölkə bazarlarına yol tapır. İstehsalçılar üçün məhsulunu yerli və xarici bazarlara çıxarmaq, onların saxlanma və daşınmasını təmin etmək əksər hallarda ciddi problemə çevrilir. Bu prizmadan yanaşdıqda aqroparklar müasir texnologiyaların tətbiq edilməsi ilə istehsal, emal və logistika xidmətlərini mərkəzləşdirilmiş vahid ərazidə yaratmaqla yüksək keyfiyyətli məhsulların alınmasına, satışının təmin edilməsinə və sahibkarlıq fəaliyyətinin mənfəətliliyinə geniş imkanlar yaradır. Bunun nəticəsi olaraq bazarlarda məhsul bolluğu ilə yanaşı, rəqabət mühitinin yaranması, keyfiyyətin yüksəlməsi və süni qiymətlərin azalması üçün mühüm faktora çevrilir. Həmçinin, yeni iş yerlərinin açılması, işsizliyin səviyyəsinin aşağı düşməsinə və region sakinlərinin rifahının yüksəlməsinə şərait yaradır. Aqroparklarda yaradılmış şərait fermerlərin infrastruktur xərclərini azaldır. Eyni zamanda Aqroparklar müxtəlif sahəvi strukturları özündə birləşdirir, buraya kənd təsərrüfatı maşınqayırması, kimya, tikinti, bitkiçilik, heyvandarlıq, yeyinti, nəqliyyat, ticarət və s. aiddir. Başqa sözlə, aqropark dedikdə qarşılıqlı əlaqədə olan kənd təsərrüfatı və sənaye müəssisələrinin birlikdə fəaliyyəti nəzərdə tutulur.

Logistika tədarük zəncirinin ən vacib bölməsini təşkil edir. Logistika sözü latın mənşəli söz olub “lojik”(məntiq) və “static”(statistika) sözlərinin birləşməsindən əmələ gəlib, “məntiqi statistika” mənasını verir. Təchizat Zəncirinin İdarə Edilməsi üzrə Ekspertlər Şurası (Council of Supply Chain Management Professionals-CSCMP) logistikaya belə bir tərif verir: “Logistika müştərilərin ehtiyaclarını ödəmək üçün məhsulların, xidmətlərin və əlaqəli informasiyaların istehsal nöqtəsindən istehlak nöqtəsinə qədər səmərəli axınını və saxlanılmasını planlaşdıran və idarə edən tədarük zəncirinin bir mərhələsidir”[7, s. 61].

Logistika fəaliyyətinin əsas məqsədi məhsul və ya xidmətləri (xammal, yarımfabrikat və köməkçi materiallar) zərurət yarandığında, ən uyğun şərtlərlə, ən aşağı qiymətə və ən düzgün zamanda çatdırmaqla, müəssisənin mənfəətini artırmaq, rəqabət üstünlüyünü və müştəri məmnuniyyətini təmin etməkdir. Bu baxımdan əsas logistik xidmətlərə aşağıdakılar daxildir:

- saxlama və nəqliyyat;
- təftiş və ekspertiza;
- qablaşdırma və əlavə dəyərli xidmətlər;
- sığorta;
- gömrük;
- anbarın idarə edilməsi;
- sifarişlərin idarə edilməsi və [8, s. 21].

FAO-nun məlumatlarına əsasən logistika xərcləri adətən kənd təsərrüfatında satışdan əldə olunan gəlirlərin təqribən 18%-ni, qida sektorunda isə 13%-ni təşkil edir. Bu nisbətlərin ümumi ortalaması 10% -dən yüksəkdir. Bilindiyi kimi, kənd təsərrüfatı sektorunda istehsal çoxhissəlidir, bu prosesdə kiçik istehsalçılar üstünlük təşkil edir, ticarət qaydaları burada tam olaraq sabit xüsusiyyətə malik deyil və ümumiyyətlə logistika prosesləri konsolidasiya və planlaşdırma üçün uyğun deyildir. Bütün bunlar logistik xidmətlərin təşkilini çətinləşdirir.

Mütəxəssislərin fikrincə, kənd təsərrüfatı və sənaye hər zaman qarşılıqlı simvolik əlaqədə olan

sistem hesab olunur. Kənd təsərrüfatı emal müəssisələrini xammalla təchiz edir, eyni zamanda sənaye də öz növbəsində kənd təsərrüfatını texniki maşın və avadanlıq, kimyəvi məhsullar, gübrə və s. ilə təchiz edir. Sənayenin inkişafı üçün kənd təsərrüfatı sektoruna investisiya qoyulması vacib hesab olunur, xüsusən inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatının inkişafı sənayeləşmə prosesinin sürətlənməsində mühüm rol oynayır. Kənd təsərrüfatı və sənaye arasındakı qarşılıqlı münasibətlərin kompleks şəkildə ilk dəfə araşdırılması Bhadari tərəfindən həyata keçirilib. Bhadari kənd təsərrüfatında əldə edilmiş mənfəətin sənaye mallarına yönəldilərək bu sahədə tələb formalaşdırdığını hesab edirdi. Kənd təsərrüfatı və sənayenin bir-birinə təsir göstərərək paralel inkişaf etdiyini, sektorlar arasında formalaşmış qarşılıqlı münasibətlərin inkişafa təkan verdiyini qeyd edirdi. Aqrar sənaye komplekslərinin beynəlxalq təcrübə prizmasından baxdıqda bir necə modeli mövcuddur. Yaranma tarixinə görə ilk dəfə Avropa Birliyi ölkələrində formalaşan kooperativlər sürətlə inkişaf edərək bazarın 50 faizindən də çoxuna sahib olub. Bu model “birgə fəaliyyət” prinsipi əsasında yaranıb. [4, s. 24].

İkinci model isə müqaviləyə əsasən kənd təsərrüfatı istehsalı modelidir. Bu model iqtisadçılar tərəfindən transmilli şirkətlərin modeli hesab olunur və iqtisadi inkişafa mənfi və müsbət təsir edəcəyi haqqında fikir ayrılığı mövcuddur. Bu model əsasən istehsalçı və alıcı arasında gələcəkdə məhsulların istehsal həcmini və müddətini, eyni zamanda məkan və qiyməti ilə bağlı məlumatları əhatə edən müqavilədir. Bu model ilk dəfə Yaponiya və ABŞ-da şəkər çuğunduru və şaftalı məhsullarının istehsalında tətbiq olunub, zaman keçdikcə müxtəlif məhsullara da tətbiq olunmağa başlayıb. Müqaviləyə əsaslanan kənd təsərrüfatı modeli daha çox ABŞ-da mövcuddur, meyvə-tərəvəz və broyler istehsalının 80-90%-dən ibarətdir. Həmçinin, Avropa daxilində də bu model geniş istifadə olunaraq bazarda yüksək paya sahibdir. Bu modelin çatışmayan cəhəti gələcəkdə baş verəcək risklərin əvvəlcədən təyin oluna bilməməsidir, bu risklər təbii fəlakət və hadisələri əhatə etdiyindən qarşısıalınmazdır [5, s. 112].

Aqropark – bu təcrübə isə ən müasir təcrübə hesab edilir. Məqsəd aqrar təsərrüfatçılıqla sənaye və təchizat sisteminin birgə fəaliyyətinin təşkilinə əsaslanır. Beləliklə, fermer fəaliyyət sahəsi, infrastruktur qayğısı, satışın təşkili, saxlanma, təkrar istehsal kimi qayğılardan azad olur. Eyni zamanda bir çox hallarda fermerlər xüsusi vergi, kredit güzəştləri əldə edə bilirlər. Bütün bunlarla yanaşı aqroparklarda fəaliyyət göstərən fermerlər elmi, texniki dəstəklə təmin edilirlər ki, bu da sonda məhsuldarlığın artımına və mənfəətin yüksəlməsinə səbəb olur.

Müxtəlif ölkələrdə irəli sürülən “aqropark konsepsiyası” kənd təsərrüfatı fəaliyyətlərinin məkan klasterləşməsinin əsas ideyasına əsaslanır. Hazırda bu istiqamətdə təşəbbüslər müxtəlif inkişaf mərhələlərindədir. Beynəlxalq aqropark layihələrinin uğurlu olması üçün dəyər zəncirinin bütün əlaqələri həyata keçirilməli və yoxlanılmalıdır. Aqroparklar yerli iqtisadiyyatın güclənməsinə mühüm töhfə verməklə yanaşı kənd təsərrüfatına effektiv yanaşmanı təmin etməkdə böyük potensiala malikdir. Çünki onlar enerji və xammal təchizatı, emissiya və tullantı məhsullarının yenidən istifadəsi ilə paralel, istehsalat və ərzağın emalı üçün lazım olan bütün funksiyaları özündə birləşdirir. Hazırda müxtəlif ölkələrdə müxtəlif formalarda təkmilləşdirilən aqroparklar qısa müddət sonra dünya əhalisinin ərzaq ehtiyacının ödənilməsində mühüm paya sahib olacaq. Aqroparkların əsas mahiyyəti aşağıdakı kimi izah edilə bilər;

- Aqrar-sənaye kompleksi (Aqropark) kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və istehlakçıya çatdırılması ilə məşğul olan təsərrüfat sahələrinin məcmusudur;
- Aqropark kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı fəaliyyətlərinin kombinasiyası olmaqla vahid istehsal məkanında kənd təsərrüfatı məhsullarının istehsalı, emal proseslərinin, aqrotexniki və logistika, sanitar və fitosanitar, marketinq və başqa bu kimi xidmətlərin təşkilidir;
- Aqropark xammal istehsalı və emalı proseslərinin rentabelliliyini artırmaqla yanaşı ətraf mühitin qorunması, torpaq və su resurslarından səmərəli istifadə və onların mühafizəsinin təmin olunmasında ən müasir formadır. Göründüyü kimi, aqroparklar hazırda kifayət qədər uğurlu aqrar inkişaf modeli hesab edilə bilər. Bu zaman əsas hədəf mümkün olan ən əlverişli istehsal mühitinin təmin edilməsidir.

*Nəticə*

Hazırda ölkəmizdə aqrobiznes sektorunda logistikanın iqtisadi inkişafının mühüm aspektlərindən biri kimi müəyyən edilməsi dövlətimizin həyata keçirdiyi iqtisadi siyasətin miqyasını əks etdirir. Bu sahənin inkişafı və sahəyə yönəldilən invsetisiyalar birbaşa və dolayı yolla digər sektorlara da müsbət təsir göstərəcək. Beləliklə, aqrobiznesə yönəldilən bu investisiyaların iqtisadi artıma töhfəsi daha yüksək olacaq. Bu çərçivədə logistika sektoruna ediləcək investisiyaların təşviq edilməsi məqsədəuyğun hesab edilə bilər. Logistika fəaliyyətinin inkişafı aqrobiznesdə həm aralıq mallara, həm də son məhsula yüksək tələbatı qarşılamaq və sahəyə yönəldilən investisiyaların xərclərə qənaət baxımından müsbət təsirini yüksəldəcəkdir.

**ƏDƏBİYYAT**


1. Aqrar sahə modernləşmə dönəmində: problemlər və onların həlli yolları. Bakı, AMEA İqtisadiyyat İnstitutu, 2009, 505 s.
2. Əliyev E.Ə.Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Zərdabi LTD, 2008.
3. Əliyev E.Ə. Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti. Bakı: Hüquq ədəbiyyatı, 2002.
4. Əliyev E.Ə. Qloballaşma dövründə beynəlxalq nəqliyyat münasibətlərinin hüquqi tənzimlənməsi. Bakı, 2007.
5. Səmədzadə Z.Ə. Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Bakı, 2010, 228 s.
6. Quliyev E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı: Elm”, 2013, 151.
7. IBRD / World Bank, Connecting to Compete 2012: Trade Logistics in the Global Economy, 2012
8. KARA, M. A., CİĞERLİOĞLU, O. (2018), Türkiye Ekonomisinde Ulaşım Altyapısının Ekonomik Büyümeye Etkisi, Gaziantep University Journal of Social Sciences, 17 (2), 577- 591.
9. SAATÇİOĞLU, C., KARACA, O. (2013), Ulaştırma Altyapısı ve Bölgesel Gelir Farklılıkları: Türkiye İçin Ampirik Bir Analiz. İşletme ve İktisat Çalışmaları Dergisi, 1(1), 1-11.



***Севда Товиг кызы Гаджиева***
***кандидат экономических наук, доцент,***
***Азербайджанский Государственный Аграрный Университет***
***кафедра “Аграрная экономика”***
***Электронная почта: sevda.haciyeva70@mail.ru***


## Современные аспекты формирования и развития логистических систем и инновационной инфраструктуры в агробизнесе

*Резюме*


**Цель исследования** - изучить факторы, определяющие развитие логистической деятельности в сфере АПК.

**Методология исследования** - системный и комплексный подход к исследуемой проблеме, использованы методы, связанные со сравнительным анализом, обобщением и оценкой роли логистики в агропромышленной деятельности с различных сторон.

**Прикладная значимость исследования** - Из положений, изложенных в исследовании, его можно учитывать в процессе формирования инфраструктуры АПК, особенно в регионах, освобожденных от оккупации, на современном этапе, когда важно обеспечить диверсификацию экономики в наша республика.

**Результаты исследования** - развитие логистической деятельности в сфере АПК будет стимулировать привлечение инноваций в этом направлении и положительно скажется на применении технологических инноваций в производстве и т.д.

**Оригинальность и научная новизна исследования** - обоснован ресурсный потенциал, необходимый для развития логистической деятельности в АПК, и основные аспекты его эффективного использования.

***Ключевые слова: АПК, логистика, промышленность, конкуренция, инновации, транспорт, инфраструктура.***

***Sevda Tovig Hajiyeva***
***PhD in Economics, associate professor,***
***Azerbaijan State Agrarian University***
***“Agrarian economy” department***
***E-mail: sevda.haciyeva70@mail.ru***

## Modern aspects of formation and development of logistics systems and innovation infrastructure in agribusiness

***Summary***

The purpose of the study is to study the factors determining the development of logistics activity in the agribusiness sphere

**Methodology of the research** - a systematic and complex approach to the investigated problem, methods related to comparative analysis, generalization and evaluation of the role of logistics in agribusiness activity from various aspects were used.

**Applied significance of the study** - From the provisions explained in the study, it can be taken into account in the process of forming agribusiness infrastructure, especially in the regions freed from occupation, at the current stage, when it is important to ensure economic diversification in our republic.

**Research results** - the development of logistics activities in the agribusiness sphere will stimulate the involvement of innovations in this direction and have a positive effect on the application of technological innovations in production, etc.

**Originality and scientific novelty of the research** - the resource potential necessary for the development of logistics activity in agribusiness and the main aspects of its effective use are justified.

***Key words: Agribusiness, logistics, industry, competition, innovation, transport, infrastructure.***